# ŞAMAXI XALÇAÇILIQ SƏNƏTİNİN TARİXİNDƏN

**Nailə Ciddi**
**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu**
**naileciddi@mail.ru**

**Açar sözlər: Şamaxı, xalça, kilim, boyaq, ticarət**

Azərbaycanda toxuculuğun əsas sahələrindən biri olan xalçaçılıq haqqında ilk məlumat Kültəpə abidəsində aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmişdir. Naxçıvandakı bu möhtəşəm abidənin birinci mədəni təbəqəsindən sümükdən hazırlanmış iy başlıqları və daşdan düzəldilmiş həvəngdəstələr tapılmışdır (1, s. 80-81). Mingəçevir yaşayış yerinin eneolit mədəni təbəqəsindən tapılan bir neçə gil tağalaq, iki tərəfdən deşiyi olan iri daş alətlər göstərir ki, artıq bu dövrdə yerli əhali toxuculuq sənəti ilə, ehtimal ki, kobud yun parçaların toxunması ilə tanış idilər (2, s. 26). Bundan başqa, Şamaxıda və onun ətraf abidələrində aparılan arxeoloji qazıntılar zamanı ilk orta əsrlər dönəmində toxuculuq və sənətkarlıqda istifadə olunmuş sümükdən, gildən və şüşədən hazırlanan müxtəlif təyinatlı alətlər aşkar edilmişdir (3, s. 69).

Azərbaycanda xalçaçılıq sənətinin uzaq keçmişə aid olduğu yazılı mənbələrlə də təsdiqlənir. Məsələn, yunan tarixçisi Ksenefont (e.ə. 480-435) yazır ki, farslar midiyalıların paltar və zinətlərini qəbul etməklə bərabər, onların xalçalarından da istifadə edirlər. Bu məlumat sübut edir ki, tarixi Azərbaycanın cənub hissəsində xalçaçılıq e.ə. I minilliyin ortalarında artıq inkişaf etmiş sənət sahəsi olmuşdur. Ərəb tarixçilərindən Əbu Cəfər Məhəmməd Təbəri, Məsudi, Əl-Müqəddəsi, İbn-Havqəl, Əl-İstəxri və b. da bu haqda məlumat verirlər (4, s. 352).

«Hüdud əl-aləm» adlı anonim əsərdə (X əsr) yazılır ki, Xoyda, Naxçıvanda, Muğanda, Səlmasda, Ərdəbildə toxunan xalçalar böyük şöhrətə malikdir. Burada həmçinin Şirvan və Xursan vilayətlərində müxtəlif çeşidli məxrufixovlu xalçalar, palazlar toxunduğuna dair məlumatlar vardır (5, s. 32). XIII əsrə aid "Əcaib əd-dünya" adlı yazılı mənbədə isə indiki Quba rayonu ərazisində zili xalçalar və yaxşı corablar toxunduğu xatırlanır (6, s. 113).

Qafqaz Albaniyasında erkən orta əsrlərdə toxuculuq sənəti öz inkişafının yüksək mərhələsinə çatmışdı. Belə ki, XI-XII əsrlərdə ərəb müəlliflərinin verdiyi məlumatlardan aydın olur ki, həmin əsrlərdə Azərbaycanda toxuculuq sənətinin demək olar ki, bütün sahələri, xüsusilə ipəkçilik, yun emalı, parça istehsalı və s. inkişaf etmişdi. Bunu "Kitabi-Dədə Qorqud" dastanının ayrı-ayrı boylarında "min yerdə ipək xalça döşənmişdi", "doxsan yerdə ala qalı, ipək döşənmişdi" (7, s. 16, 28, 42, 69, 106) və s. bu kimi fikirlər də təsdiq edir.

Beləliklə, aydın olur ki, Azərbaycanda xalça istehsalı eramızdan əvvəl meydana gəlsə də, çiçəklənmə dövrü erkən orta əsrlərə təsadüf edir. Yazılı

mənbələrdə monqol hücumlarından əvvəl Azərbaycan şəhərlərində geniş çeşiddə xalça-palaz məmulatı toxunduğu və monqolların bu ölkədən minlərlə xalça qarət edib apardıqları xəbər verilir (8, s. 194). Dahi Nizami Gəncəvinin əsərlərində toxuculuq məmulatından ipək, qumaş, kilim, xalı, palaz, atlaz, kətan və mitqalın adları çəkilir, darayıcılardan, əyiricilərdən, toxuculardan bəhs olunur.

Avropalılar isə Azərbaycan xalçaları ilə XV əsrdən etibarən tanış olmağa başlamışlar. Bu dövrdə artıq Şirvandan və Arrandan Qərbi Avropa ölkələrinə çoxlu miqdarda xalça ixrac olunurdu (6, s. 113). İntibah dövrünün məşhur Avropa rəssamlarının bəzilərinin əsərlərindəki müəyyən motivlər də bundan xəbər verir.

Dövrümüzə qədər gəlib çatmış ən qədim Azərbaycan xalçası XIII-XIV əsrlərə aiddir. Quba-Şirvan qrupuna məxsus "Şirvan" tipli həndəsi naxışlı bu xovlu xalça hazırda İstanbulun Türk İslam Əsərləri Muzeyində saxlanılır. Bu xalça XIII-XIV əsrlərə aiddir (6, s. 113). Berlin incəsənət muzeyinin Şərq bölməsində nümayiş etdirilən "Şirvan" adlı digər xalça da Azərbaycan incəsənətinin nadir sənət nümunələrindəndir. Türk İslam Əsərləri Muzeyində saxlanılan xalça üç hissədən ibarət enli yelən ilə tamamlanır. Haşiyələr içərisində həndəsi formalı zəngin naxış vurulmuşdur. Bu naxışlara diqqətlə baxdıqda, onların gül-çiçək rəsmlərinin stilizə edilmiş formaları olduğunu görərik (9,s.32).

Orta əsrlər dönəmində xalça istehsalı və ticarəti beynəlxalq münasibətlərdə və dövlətlər arası iqtisadi əlaqələrdə mühüm rol oynayırdı. Təsadüfi deyil ki, XV əsrin II yarısında güclənməkdə olan Moskva dövləti xam ipək, ipək parça və xalça ilə zəngin olan Şirvanla qarşılıqlı ticarət əlaqələri və diplomatik əlaqələr yaratmağa daha çox həvəs göstərirdi (6, s.140). Bu barədə yazılı qaynaqlarda, o cümlədən, Azərbaycanda olmuş Avropa səyyahlarının - Ö.Çələbi, A.Cenkinson, A.Kontarini, İ.Şildberger, A.Oleari, Y.Streys və başqalarının əsərlərində maraqlı məlumatlar vardır. Bu baxımdam A.Cenginsonun 1562-ci ildə Şamaxıda olarkən burada qızıl-gümüş saplarla toxunmuş xalçalar haqqında ingilis kraliçası Yelizavetaya verdiyi məlumat xüsusilə maraqlıdır: "...Kral ipək və zərli sapla bəzək vurulmuş zəngin alaçıqda oturmuşdu. Alaçıq təpənin döşündə çox gözəl görünürdü... Alaçığın içinə başdan-başa zəngin, bəzəkli xalçalar döşənmişdi. Onun altına isə gümüşdən və qızıldan bəzək vurulmuş kvadrat şəkilli xalça salınmış, üstünə də ona layiq iki yastıq qoyulmuşdu... (10, s. 126).

XVI əsrdə Şirvanda olmuş ingilis diplomatlar - Bannister və Duket yazırdılar ki, yerli sakinlərin evlərində xalça və mis məmulatı istisna olmaqla ev əşyaları azdır. Onlar yerdə xalça üzərində, dərzilər kimi bardaş qurub oturur, yemək yeyirlər. Ən sadə adamlar arasında da eləsi tapılmaz ki, yaxşı ya pis xalçası olmasın; onların evlərinə, yaxud da otaqlarına başdan-başa xalçalar döşənib (11, s. 157). Alman A.Oleari isə qeyd edirdi ki, Şamaxıda kəndlilərin evləri çox səliqəlidir və döşəmələr xalçalarla örtülüdür (11, s. 260).

Əsasən yun istehsalı və tədarükü ilə bağlı olan xalçaçılığın Şirvanda geniş yayılmasının əsas səbəbi ilk növbədə buranın təbii çoğrafi mühiti və qoyunçuluq təsərrüfatının inkişafı üçün əlverişli şəraitin olması idi. Belə ki, tam olmayan məlumata görə, XIX əsrin 30-40-cı illərində Azərbaycanda milyon yarım qoyun və keçi var idi. 1857-ci ildə isə təkcə Şamaxı quberniyasının beş qəzasında 1 334 937 davarın olması faktı da məlumdur. Azərbaycanda yetişdirilən yerli qoyun cinsləri və onlardan alınan yun məhz toxuculuq üçün ən münasib xammal mənbəyi idi (12, s. 18, 19). Bundan başqa, Şamaxı və onun ətraf bölgələri tarixən dəvəçilik təsərrüfatının da əsas mərkəzlərindən biri olmuşdur. Təkcə onu demək kifayətdir ki, 1926-cı ildə Azərbaycanda mövcud olan 4 500 baş dəvənin 4195 başı Şamaxı qəzasının 8 kəndinin payına düşürdü (12, s. 49). Dəvə yununun toxuculuq sənətkarlığında geniş istifadə olunduğu isə hamıya məlumdur.

Onu da qeyd edək ki, Cənubi Qafqazın bütün bölgələrində xalçaçılıqla yalnız müsəlman əhali məşğul olurdu (16, s. 284). Məsələn, "Qafqaz təqvimi"nin 1900-cu ildə veriyi məlumatda qeyd olunur ki, "Qərbi Zaqafqaziyada və Gürcüstanda xalça istehsalı demək olar ki yoxdur. Şərqi və Cənibi Zaqafqaziyada isə bu sənət sahəsi ilə demək olar ki, hər yerdə məşğul olurlar...Qubada, Göyçayda və Şamaxıda çox orijinal və qiymətli xalçalar toxunur ki, onlara başqa yerlərdə rast gəlinmir" (14, s. 62, 64).

Şamaxıda xalçaçılığın inkişafına təkan verən başqa bir faktor da bölgənin toxuculuq üçün əsas xammal məhsullarından olan boyaq bitkiləri ilə zənginliyi idi. Pirqulu, İsmayıllı, Talış, Cəngi, Xaltan, Alpoud meşələrində bitən müxtəlif ağac və kol bitkiləri, xalq arasında "toxmacar" adlanan tut bağları boyaqçılıq işinin geniş yayılmasına şərait yaradırdı. Bundan başqa, yunu boyamaq üçün boyaq otundan (marenadan), əncir yarpağından, soğan qabığından, zəfərandan, nar qabığından, qoz qabığından və digər bitkilərdən da boyaq məhlulu alırdılar. Xalçaların rəngləri şux və davamlı olurdu (6, s. 139-140). Quba-Şamaxı zonası sarağan, marena, indiqo və s. kimi çox qiymətli sayılan boyaq bitkilərinin də vətəni idi. Yeri gəlmişkən qeyd edək ki, Şirvanın xalça və xalça məmulatlarının əsas üstünlüklərindən biri də məhz onların rəng parlaqlığı idi. Bu bölgənin Məlhəm, Ərçiman, Çalov, Sor-sor, Qəşəd, Lahıc, Ərəbuşağı, Basqal, Dilman, Xatman, Nüydü, Cəyirli, Sulut, Zərgəran, Qaraqoyunlu, Osmanbəyli, Çarhan, Nabur, Kolanı, Poladlı, Yekəxana və s. kimi yaşayış məntəqləri əsas boyaqçılıq mərkəzləri idilər. Mənbələrin yazdığına görə, 1841-ci ildə Şamaxıda 68 boyaqçılıq müəssisəsi fəaliyyət göstərirdi. Ümumiyyətlə, XIX əsrin 60-cı illərində Azərbaycan ərazisində fəaliyyət göstərən boyaqçılıq müəssələrinin təqribən ¾-ü, yəni (41 müəssisədən 31-i) Şamaxı şəhərinin və Şamaxı qəzasının payına düşürdü. Burada müvafiq olaraq 1248 və 872 rublluq boyaq maddəsi istehsal edilirdi ki, bu məhsulların da böyük hissəsi Şamaxıda və ətraf qəsəbələrdəki toxuculuq müəssiləri alırdı. ...Belə bir vəziyyət XIX əsrin 80-ci illərində də da-

vam edirdi. Əsrin 90-cı illərində isə vəziyyət bir qədər fərqli idi. Bu illərdə boyaqçılıq müəssisələrinin və işçilərin sayında azalma (boyaq müəssisələri 23-dən 9-a, boyaqçıların sayı isə 59-dan 36-ya enmişdi) müşahidə olunurdu (15, s.127, 134).

Şirvan xalçalarının əsas xüsusiyyətlərindən biri, ölçülərinin kiçik olmasıdır. Belə ki, burada çox nadir hallarda 10-15 və ya 20 kv.m ölçüdə toxunmuş xalçalara rast gəlinir. Yəni Şirvan xalçaları kiçik və orta ölçüdə sıx, yumşaq və nazik toxunur ki, burada da hər kv.m xalçaya 160 mindən 300 minə qədər, bəzən 350 minə qədər ilmə vurulur. Onların kompozisiysı mürəkkəb və zəngin həndəsi naxışlı, rəngləri ahəngdar və ağır, texniki cəhətdən dolama ilmə və qullabı ilmə ilə toxunur. İlmənin hündürlüyü 3mm-dən 6 mm-ə qədər olur (16, s.4).

Mütəxəssislərin yazdığına görə, Şirvan xalçalarının 25-ə qədər çeşnisi məlumdur. Medalyon və xırda naxış çeşnilərindən (Şivan, Şamaxı, Qobustan, Salyan, Qəbələ, Ərciman, Mərəzə, Sorsor, Şilyan, və b.) əlavə, bu qrupa "Namazlıq" və "Bəndi-rumi" kimi oprjinal kompazisiyalı xalça çeşniləri də daxildir. Şirvan xalçalarında həmçinin, buta motivli bəzək ünsürləri (gülabdan-buta, çiçəkli buta, bala buta, badamı buta və b.) üstünlük təşkil edir (17, s. 23; 28, s. 279).

Xatırladaq ki, Azərbaycan xalçaları öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz xalçalara bölünürlər. Xovsuz xalçalar toxuculuq sənətinin daha erkən dövrünə aid edilir. Onlar insanın köçəri həyat tərzi ilə sıx bağlı aid olub, köç arabalarının, çadırların üstünün, yan-yörəsinin örtülməsində istifadə olunmuş, həmçinin pərdə, örtük, ayaqaltı kimi işlənmiş, döşəməyə salınmışdır. Xovsuz xalçaların, ümumiyyətlə xalça sənətinin yaranmasının əsasını onların ilk sadə nümunələri olan həsir, çətən, buriya təşkil edir. Sonrakı dövrlərə isə xovsuz xalçaların daha mürəkkəb texnikaya malik nümunələri, o cümlədən vərni, şəddə, sumax meydana çıxmışdır (19, s. 3-4).

Xovsuz xalçalar nisbətən sadə və az bəzəkli toxunsa da, rəngləri və bəzəklərinin sxematik ifadəsi ilə diqqəti cəlb edir. Onların üzərində bir qayda olaraqar rəngli zolaqlara, dördbucaq, paxlava, çarpaz, qıvrım xətlərə və s. həndəsi fiqurlara rast gəlirik. Mənşəyi etibarı ilə qədim dövrlərə aid olan sxematik bəzəklər əslində real varlıqda rast gəldiyimiz əşyaları təsvir edir. Xovsuz xalçaların əsas xüsusiyyətlərindən digəri də ondan ibarətdir ki, onlar xovlu xalçaların üzərindəki nəbati ornamentlər kimi, başqa bəzək ünsürləri ilə bağlı olmur və hər bir ornament ünsürü nisbətən sərbəst təsvir olunur (9, s. 63).

Xovlu xalçalardan isə Xalı, Gəbə (böyük ölçülü, ensiz xovlu xalça), Dəst-Xəli-Gəbə, Puştu, Namazlıq, və s. göstərmək olar (çox vaxt iki, üç və daha artıq insanı nəzərə alıb, bir az böyük namazlıqlar da toxunulardı. Bu xalçalar bəzən "saf", "səccadə" adlanardı). Bununla yanaşı, keçmişdə Azərbaycanın bəzi bölgələrində "dəst xalça" (fərş) toxumaq da dəb halını almışdı (20, s. 470).

Xovlu xalçalar toxuculuq sənətinin inkişaf etmiş mərhələsinin məhsuludur. Sadə xovsuz xalça toxunuşundan, ağır, xovlu xalça toxunuşuna keçilməsinin başlıca səbəbi isə iqlim şəraiti ilə əlaqədar olmuşdur. Lakin bədiilik hissi, gözəllik duyğuları, insanın həyatda yaratdığı hər bir əşyada əbədiliyi görmək istəyi xalq ustalarını naxışların zərif nüanslarını verməyə imkan yaradan, təbiətin zəngin boyalarını, rəng çalarlarını canlandırmağa qadir olan, əşyaya davamlılıq keyfiyyəti gətirən toxunuş üslubu axtarıb tapmağa sövq etmişdir. Müəyyən tətbiqi sahələri olan müxtəlif ölçülü xalçalar belə toxunmuşdur (21, s. 23-24).

Şamaxı xalçalarında faunanı, insan siluetlərini, mistik təsəvvürlərlə mücərrəd qrafik təsvirləri, İslam dini motivlərini özündə birləşdirən kompozisiyalara da rast gəlinir. "Ovçuluq", "Narlı" kimi məşhur süjetli xalçalarda əks olunmuş sakral təsəvvürlər isə bəşəri mahiyyət kəsb edir. Süjetli "Ovçuluq" kompozisiyaları, heyvan və quş təsvirləri Azərbaycanın dekorativ-tətbiqi sənətində sevilən ən sabit mövzu olaraq əsl xalq ənənəsi traktovkasına malikdir. Kompozisiyanın sadəliyi, aydınlığı, realist obrazda təsvir forması "Ovçuluq" xalçasına monumentallıq və əzəmətlilik verir.

"Ərçiman", "Mərəzə", "Sor-Sor", "Şamaxı", "İsrafil", "Cəmcəmil", "Pirhəsənli", "Şilyan", "Salyan", "Nabur", "Kürdəmir" və s. xalçalarda "Əl-ələ" mərasim rəqsini ifa edən insan təsvirləri, çeşidli butalar, ilahi məziyyətləri bildirən nəbati motivlər, svastika, qarmaqlı romblar, dördbucaqlar, göllər, kətəbələr, mifoloji quşlar, nəzərlik asmalar, islam dini ilə bağlı – qəndil, gülabdan, daraq, aftafa-ləyən, təsbeh, möhür təsvirləri və digər naxışlar üstünlük təşkil edir. Bədii məzmunundan asılı olmayaraq, bu naxışların hər biri bolluq, artım, paklıq, əbədi həyat və kosmoqonik təsəvvürlərlə bağlı olub, xalqın qan yaddaşından süzülərək xalçalarda əks olunmuşdur. Xalq inanışlarında bu elementlərin hər biri sahibinə uğur gətirmiş, onu bəd ruhlardan, mənfi enerjidən və nəzərdən qorumuşdur.

Şamaxı xalçalarında geniş yayılmış və əsasən ibadət üçün nəzərdə tutulan "Namazlıq" xalçalara xas olan elementlərin təsvirlərindən əsasən "Sor-Sor", "Qabıstan", "Mərəzə", "Bicov", "Salyan", "Qəbələ" çeşnilərində, eləcə də "sütunlu" və başqa sərbəst kompozisiyalarda istifadə olunur. Bu xalçalar da müxtəlif ənənəvi bədii quruluşdan ibarətdir.

XIX əsrin ortalarından etibarən Azərbaycan xalçaları müntəzəm olaraq müxtəlif beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir. İlk dəfə 1852-ci ildə Moskvada Ümumrusiya kənd təsərrüfatı və kənd sənayesi sərgisində, sonra isə 1872-ci ildə Moskvada politexnik sərgidə nümayiş etdirilən Azərbaycan xalçaları böyük müvəffəqiyyət qazanmışdır. Bundan başqa, 1882-ci ildə Moskvada Ümumrusiya sənaye və incəsənət sərgisində, 1889-cu ildə Tiflisdə "Qafqaz Kənd Təsərrüfatı və Sənaye Məmulatları sərgisi"ndə və 1912-1913-cü illərdə Peterburqda keçirilən ikinci Ümumrusiya kustar sənaye sərgisində də Azərbaycan xalçaları nümayiş olunmuşdur.

XIX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycan xalçalarının nümayiş etdirildiyi beynəlxalq sərgilərdən isə 1872-ci ildə İtaliyada, 1911- ci ildə Berlində və 1913-cü ildə Londonda keçirilmiş sərgiləri qeyd etmək olar (21, s. 14-15). Lakin bir vacib məqam da qeyd edilməlidir ki, uzun illər muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan Azərbaycan xalçaları, o cümlədən xalça sənətinin şöhrət tapmış nümunələri Azərbaycan xalçası kimi deyil, "fars xalçaları", "Qafqaz xalçaları" və s. adlarla təqdim və təbliğ olunmuşdur. Hətta indinin özündə milli və xarici xalçaşünasların hərtərəfli elmi tədqiqatları sayəsində həmin xalçaların əsil mənsubiyyəti elmi cəhətdən müəyyənləşdirilmiş olduğu bir vaxtda da, göstərilən meyl davam etməkdədir.

Sevindirici haldır ki, Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkəmizdə bütün digər maddi və mənəvi dəyərlərimiz kimi, xalça sənətinə böyük diqqət və qayğı mövcuddur. Belə ki, Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan xalçaçılıq sənəti beynəlxalq səviyyədə dəyərləndirilərək UNESKO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilmişdir. Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Azərbaycan Respublikasının "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" 4 dekabr 2007-ci il tarixli "Qanun"u da xalça sənətinin dirçəldilməsi istiqamətində mühüm hadisədir. Həmin qanun Azərbaycanın tarixi ərazilərində toxunmuş və hazırda xalq sənətkarları, ustalar, rəssamlar tərəfindən əl ilə toxunan Azərbaycan xalçalarının qorunub saxlanılması, öyrənilməsi, xalça sənətinin təbliği və inkişaf etdirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Burada Azərbaycan xalçası Azərbaycan xalqının maddi və mənəvi sərvəti, intellektual fəaliyyətinin nəticəsi, xalqın estetik dünyagörüşünün, bədii istedadının, özünəməxsusluğunun və mədəni identikliyinin təzahürü kimi təqdim edilməklə, qorunması, təbliği və təhsil müəssisələrində tədrisinin vacibliyi öz qabarıq əksini tapmışdır. Bundan başqa Qanunda xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının ölkəyə qaytarılmasına şərait yaradılması, xalça sənətinə dair elmi tədqiqat işlərinin yazılması və metodiki tədbirlərin həyata keçirilməsi, ölkə daxilində və xarici muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloqun hazırlanması kimi tədbirləri nəzərdə tutur.

**ƏDƏBİYYAT**

1. Həbibullaev A. Kültəpədə arxeoloji qazıntıların ilk nəticələri// Azərbaycan Tarix Muzeyinin əsərləri, II c., 1957, s. 15-16.
2. Quliyev H. Azərbyacanda toxuculuq sənəti tarixindən (ən qədim zamanlardan XIII əsrə qədər) // Az. SSR EA Xəbərləri (ictimai elmlər seriyası), №4, 1961, s.26-28.

3. Джидди Г. Средневековый город Шемаха (IX-XVII вв). Баку, Элм, 1981, 174 с.
4. Руденко С.Л. Культура населения Горного Алтая b скифское время. М-Л, 1953, 404 с.
5. Hüdud əl-Aləm //A.Tumanskinin əlyazması. Л. 1930, 366 s.
6. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı. Əbilov, Zeynalov və oğulları, 2006, 650 s.
7. Kitabi-Dədə Qorqud. Bakı, Azərb. Dövlət Nəşriyyatı, 1962, 176 s.
8. Али-заде Абдул-Керим Али оглы. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, АН Азерб. ССР, 1956, 430 с.
9. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, İşıq, 1976, 190 s.
10. Mahmudov Y. Səyyahlar Azərbaycana gəlir. Bakı, Gənclik, 1977, 140 s.
11. Английские путешественники в Московском государстве в XVI веке. Л., ОГИЗ, 1937, 306 с.
12. Həvilov H. Martda mərək. Bakı, Azərnəşr, 1993, 114 s.
13. Хатисов К. Кустарные промыслы Закавказского края //Отчеты и исследования по кустарной промышленности в России. СПб, 1894, т. 2, 331 с.
14. Кавказский календарь на 1901 г. Tiflis. 1900 г. 510 с.
15. Сумбатзаде А. С. Промышленность Азербайджана в XIX в. Баку, 1964, 501 с.
16. Kərimov L. Azərbaycan xalçası. I c. Bakı-Leninqrad, 1961, 58 s.
17. Алиева А. Ворсовые ковры Азербайджана XIX-нач. XX вв (Автореферат). Баку. 1973, 142 с.
18. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2001, 439 s.
19. Алиева К. Безворсовые ковры Азербайджана. Баку, Ишыг. 1988, 144 с.
20. Azərbaycan etnoqrafiyası. 3 cilddə. I c. B. Şərq-Qərb, 2007, 381 s.
21. Azərbaycan xalçası: biblioqrafiya (tərtibçi-müəllif K.Tahirov). M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. Bakı, 2012, 469 s.

## HISTORY OF THE CARPET-WEAVING OF SHAMAKHI

**Naila Jiddi**

### Summary

**Key words: Shamakhi, carpet, dye, trade**

Shamakhi is one of the ancient cities and cultural centres of Azerbaijan which was also particularly famous with a number of different fields of craftsmanship including carpet-wearing. This region is considered to be very rich with dye plants and also has a convinient circumstance for caprine rasing, two of them are the main reason

for high development of carpet-wearing in Shirvan and also Shamakhi. Small size, tight weaving, a composition with geometric decoration, softness and brightness are of main features for Shamakhi carpets. Article is about all above mentioned and also about the history, development and technical features of carpets in Shamakhi.

## ИЗ ИСТОРИИ КОВРОТКАЧЕСТВА ШЕМАХИ

**Наиля Джидди**

### Резюме

**Ключевые слова: Шемаха, ковроткачество, крашение, торгово-экономичеслие связи**

Шемаха один из древнейших культурно-экономических и историических центров Азербайджана. Особое место в хозяйственной жизни горожан заняло ткачество, особенно ковроделие. Главным условием широкого развития ковроткачества в регионе было связано с благоприятным и природно-географическими условиями, которые влияли на развитие пастбищного овцеводства и красильного дела. Главная особенность шемахинских ковров-их малый размер, плотность петель, сложность композиции и преобладаний геометрических орнаментов, мягкость и яркость цветовой гаммы. В статье прослеживается также история развития и техническая характеристика шемахинских ковров.